

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 160 (23.802)

2 sentyabr 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



*Sentyabrın 1-də Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələrin icrasına həsr olunmuş iclas keçirilib.*

İclasda rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev bildirib ki, muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar rabitə sahəsinin inkişafına da əsaslı zəmin yaradıb, ən müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya xidmətlərinin çeşid və keyfiyyətinin artırılması istiqamətində bir sıra layihələr həyata keçirilib.

Vurğulanıb ki, avqustun 28-də Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə verilmiş tapşırıqların icrası ilə bağlı vəzifələr müəyyənləşdirilib.

Diqqətə çatdırılıb ki, nazirliyin struktur bölmələrinin əməkdaşları bütün yaşayış məntəqələrində fasiləsiz rabitə və internet xidmətlərinin göstərilməsinə, qəzalı vəziyyətdəki xətt və dirəklərin dəyişdirilməsinə, müvafiq mal-material ehtiyatının yaradılmasına nail olmalı, rabitə mütəxəssisləri mövsümə uyğun geyim və zəruri avadanlıqlarla təmin edilməli, avtomat telefon stansiyalarında istismar olunan qurğulara, o cümlədən generatorlara və akkumulyatorlara texniki baxış keçirilməli və aşkar olunan çatışmazlıqlar qısa müddət ərzində aradan qaldırılmalıdır. Həmçinin nazirliyin aid əməkdaşları tərəfindən yerlərdə xətt təsərrüfatının vəziyyəti təhlil edilməli, nəticələrə uyğun zəruri tədbirlər görülməli, avtomat telefon stansiyalarının fasiləsiz fəaliyyəti üçün müvafiq yanacaq ehtiyatının yaradılması təşkil edilməlidir. Qazanxanalar işlək vəziyyətə gətirilməli, aşkar olunan çatışmazlıqlar dərhal aradan qaldırılmalıdır.

Bildirilib ki, payız-qış mövsümünə hazırlıqla bağlı həyata keçirilən tədbirlər, eyni zamanda qazanxana və istilik sistemləri üzrə ixtisaslı kadrlara olan tələbatı da aktual edir. Bu səbəbdən də hazırda fəaliyyət göstərən qazanxana işçilərinin ixtisasları araşdırılmalı, bilik səviyyələri yoxlanmalı, qabaqcadan təlimatlandırılmalıdır. Zərurət yarandıqda qazanxana və istilik sistemləri üzrə yeni ixtisaslı kadrların hazırlanması üçün müvafiq peşə kurslarında onların iştirakı təmin edilməlidir. Nazirlikdə və tabeli qurumlarda yanğın təhlükəsizliyi ilə bağlı tədbirlər də davamlı xarakter almalıdır.

Bunlarla yanaşı, səlahiyyətli nümayəndələr tərəfindən nazirliyin və tabeliyində olan qurumların inzibati binalarına baxış keçirilməli, istilik, su və kanalizasiya xətlərinin istismara yararlılığı araşdırılmalıdır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib və 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən həyata keçiriləcək işlər müəyyənləşdirilib.



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində keçirilən müşavirədə ədliyyə naziri, baş ədliyyə müşaviri Daşqın Rəhimov çıxış edərək bildirmişdir ki, 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə Ali Məclisin Sədri muxtar respublikanın qışa hazırlığını geniş təhlil edərək görüləcək işlərlə bağlı dövlət orqanlarına müvafiq tapşırıqlar vermiş, bu sahədə Ədliyyə Nazirliyinin də üzərinə mühüm vəzifələr qoyulmuşdur. Qeyd edilmişdir ki, Ədliyyə Nazirliyi cəzaçəkmə müəssisələrinin istiliklə fasiləsiz təmin olunmasını, məhkumların isti geyim və ərzaqla təchizatını diqqətdə saxlamalıdır.

Nazirliyin sisteminə daxil olan inzibati binaların qızdırılması nəzarətdə saxlanılır. Cəzaçəkmə müəssisələrinin bütün tələbatları nəzərə alınaraq, məhkumların isti geyim və ərzaqla təminatı sahəsində ehtiyac üzrə sifarişlər verilərək təyinatı üzrə istifadəsi diqqət mərkəzində saxlanılır. Qış mövsümü üçün tədarük edilən qida məhsullarının soyuducu anbarlarda saxlanmasına nəzarət edilir. Məhkumların sağlamlığı da diqqətdə saxlanılır. Tibbi-sanitar hissəsində lazımi dərman preparatlarının alınması, məhkumların mütəmadi olaraq həkim müayinəsindən keçirilməsi, qış mövsümü xəstəliklərinin müalicəsi üçün nəzərdə tutulan dərmanların sifariş verilməsi təmin edilir. Koronavirus pandemiyası ilə əlaqədar olaraq cəzaçəkmə müəssisələrinin giriş və çıxışlarına nəzarət gücləndirilir, kompleks dezinfeksiya tədbirləri davam etdirilir.

Məruzə ətrafında Penitensiar Xidmətin təsərrüfat bölməsinin rəisi, ədliyyə mayoru Dövran Abdinov, Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin əməliyyat-rejim işləri üzrə rəis müavini vəzifəsini icra edən ədliyyə polkovnik-leytenantı Rəşad Fərzəliyev, Mühafizə Taborunun komandiri, ədliyyə mayoru Ramin Əsgərov çıxış etmiş, nazirliyin Təşkilat-nəzarət şöbəsinin rəis müavini əvəzi, I dərəcəli ədliyyə qulluqçusu Ələkbər Hüseynov növbəti payız-qış mövsümünü də problemsiz başa vurmaq üçün müəyyənləşdirilmiş tədbirlər barədə məlumat verib.

* * *



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən kollegiya iclasında səhiyyə naziri Niyazi Novruzov çıxış edərək bütün sahələrdə olduğu kimi, səhiyyə müəssisələrində də fasiləsiz, ahəngdar iş rejiminin təmin edildiyini bildirib. Diqqətə çatdırıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında ən son yenilikləri özündə əks etdirən avadanlıqlarla təchiz olunmuş tibb ocaqlarının istifadəyə verilməsi davam etdirilir.

Cari ilin ötən dövründə Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun Şərur və Şahbuz rayon şöbələri müasir tibbi avadanlıqlarla təchiz edilərək yeni binalara köçürülmüşdür. Şərur rayon Şəhriyar, Ordubad rayon Yuxarı Əndəmic və Nüsnüs, Şahbuz rayon Ağbulaq kənd həkim ambulatoriyaları yeni tikilmiş, Ordubad Rayon Uşaq Xəstəxanası isə yenidənqurmadan sonra bütün ehtiyac olan avadanlıqlarla təchiz edilərək istifadəyə verilmişdir.

Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin yenidən qurulması, Şərur rayon Çərçiboğan, Ordubad rayon Dırnıs kənd həkim ambulatoriyalarının, Şərur rayon Dərvişlər, Babək rayon Göynük, Ordubad rayon Vələver kənd feldşer-mama məntəqələrinin, Darıdağ Arsenli Su Müalicəxanasının tikintisi isə davam etdirilir.

Dezinfeksiya işlərini daha da yaxşılaşdırmaq üçün 2 ədədi Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə və 7 ədədi rayon şöbələrinə olmaqla, gigiyena və epidemioloji xidmətə 9 ədəd maşın verilmişdir.

Yeni istifadəyə verilən müəssisələr istilik sistemi ilə təchiz edilir, payız-qış mövsümünə hazır vəziyyətə gətirilir. Bu səbəbdən son illər qış mövsümü üçün ehtiyac olan yanacaq keçən illərə nisbətən xeyli azalmış, mal-materiala isə ehtiyac qalmamışdır. 2022-ci ilin qış mövsümündə 82 tibb müəssisəsi fərdi istilik sistemi ilə, 130 müəssisə mərkəzi istilik sistemi ilə, 5 müəssisə neft sobası ilə qızdırılacaq. Bu il də keçən illərdə olduğu kimi, qışa hazırlıq məqsədilə bütün elektrik xətləri, transformator, generatorlar, istilik və su xətləri müvafiq qurumlar və müəssisələrin özləri tərəfindən nəzarət qaydası ilə yoxlanılır və çatışmazlıqlar aradan qaldırılır.

Səhiyyə naziri payız-qış aylarında baş verə biləcək hər hansı hal üçün müəssisə rəhbərlərinin məsuliyyət daşıdığını vurğulayaraq bildirib ki, sertifikatı olmayan ocaqçılar qazanxana maşinisti kurslarına cəlb olunmalı, səhiyyə müəssisələrinə veriləcək yanacaq və mal-materialdan səmərəli istifadə təmin edilməli, bütün tibb müəssisələrində ocaqçı və gözətçilərin peşə hazırlıqları bir daha yoxlanılmalı, dövlət mülkiyyətinin qorunmasına şüurlu münasibət formalaşdırılmalıdır. Payız-qış mövsümü ilə əlaqədar nəzarət komissiyaları yaradılmalı, müntəzəm reydlər aparılmalı, ocaqçı və gözətçilərin iş vaxtına, geyim formalarına və təhlükəsizlik qaydalarına əməl etmələri nəzarətdə saxlanılmalıdır.

Sonra çıxışlar olub.



*Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində keçirilən yığıncaqda müəssisənin direktoru Behruz Əzimov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinə də bir sıra tapşırıqlar verilib.*

Verilən tapşırıqların icrasına uyğun olaraq müəssisə və təşkilatları vaxtında yanacaqla təmin etmək məqsədilə Bakı şəhərindən İran İslam Respublikası ərazisindən keçməklə və Bakı-Gürcüstan-Türkiyə yolu ilə Naxçıvan Muxtar Respublikasına yanacaq daşınması üçün ağırtonnajlı avtomaşınlar cəlb edilib. 2021-ci ilin 8 ayında 17435 ton dizel yanacağı, 19171 ton A-92 avtobenzini, 88 ton A-1 avtobenzini, 6498 ton bitum, 3455 ton mazut, 60 ton müxtəlif növ yağlar gətirilib. Yanacağın daşınması mütəmadi olaraq tələbata uyğun həyata keçirilir. Yanacaq daşıyan avtomaşınlara vaxtlı-vaxtında baxılır və onlar saz vəziyyətdə saxlanılır. 1 sentyabr 2021-ci il tarixə müəssisənin anbarlarında 4104 ton dizel yanacağı, 1970 ton A-92 avtobenzini, 332 ton mazut ehtiyatı olub.

Qeyd edilib ki, Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi üçün zəruri avadanlıqlarla təchiz olunub. Belə ki, 2 ədəd yanğınsöndürən avtomaşın saz vəziyyətdə müəssisənin qarajında saxlanılır, həmçinin müəssisəyə yanğınsöndürən balonlar və digər yanğın əleyhinə olan avadanlıqlar alınıb. Bundan əlavə, təhlükəsizliyi təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi ilə sıx əlaqə yaradılıb, nazirliyin 4 əməkdaşı müəssisənin mühafizəsinə cəlb edilib.

Diqqətə çatdırılıb ki, cari ilin əvvəlindən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq bölgüsü əsasında payız-qış mövsümündə istilik sistemləri olmayan təhsil, səhiyyə və mədəniyyət müəssisələrinə yanacağı yerlərdə çatdırmaq üçün lazımi tədbirlər görülür və yanacaq ehtiyatı yaradılır.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Beynəlxalq Hava Limanında keçirilən iclasda Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədli çıxış edərək aidiyyəti üzrə tapşırıqlar verib.

Qeyd edilib ki, avqustun 28-də Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirədə Ali Məclis Sədrinin verdiyi tapşırıqlara əsasən Naxçıvan Beynəlxalq Hava Limanı qış aylarında uçuşların təhlükəsizliyi ilə bağlı işləri nəzarətdə saxlamalı, maşın-mexanizmlərin, elektrik və işıqlandırma sistemlərinin, rabitə qurğularının texniki cəhətdən sazlığını yoxlamalı, tələbata uyğun yanacaq və material ehtiyatı yaratmalıdır.

Vurğulanıb ki, mövsümlə bağlı aerodromun normal istismarının təmin edilməsi üçün bir sıra təlimata uyğun məqsədyönlü tədbirlər həyata keçirilir. Payız-qış mövsümü ilə əlaqədar olaraq uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə uçuş-enmə zolağı, dönmə yolları və dayanacaqlarda nişanlanma aparılır. Perronda açıq-örtülü drenaj xətləri yoxlanılır və profilaktik tədbirlər görülür. Bununla yanaşı, mövsümlə əlaqədar ən vacib məsələlərdən biri də soyuq havalarda hava gəmilərinin uçuş-enmə zolağına təhlükəsiz, maneəsiz enib-qalxmasının təmin olunmasıdır. Aerodrom təminatı bu istiqamətdə ardıcıl hazırlıq işləri aparmalı, uçuş-enmə zolağında cari təmir işləri başa çatdırılmalı, ölçü cihazları – skidometr və ATT-2 avadanlıqlarının test yoxlamaları keçirilməli, mühəndis-texniki heyəti payız-qış mövsümünə uyğun işini təşkil etməli, qartəmizləmə qrafikləri hazırlanmalı və tələb olunan səviyyədə aerodromun normal istismarı təmin etməlidir.

Diqqətə çatdırılıb ki, uçuş-enmə zolağının sürüşmə əmsalını ölçmək üçün nəzərdə tutulan qurğular laboratoriyada yoxlanılmalı, texniki baxış keçirilib və hazır vəziyyətə gətirilməlidir. Həmçinin qarlı və soyuq havalarda aerovağzal kompleksi və yardımçı binaların, uçuş-enmə zolaqlarının işıqlandırma sistemlərinin yoxlanılması reqlamentə uyğun olaraq davam etdirilməli, köməkçi yolların və səkilərin qardan təmizlənməsi üçün qartəmizləyən maşınlar hazır vəziyyətə gətirilməli, qış mövsümündə uçuş-enmə zolağının, perronun qar və buzdan təmizlənməsi üçün lazım olan donmaya qarşı hazır maye ehtiyatı yaradılmalıdır.

Bildirilib ki, hava limanı ərazisində yanğın təhlükəsizliyi ilə əlaqədar qabaqlayıcı tədbirlər də, öz növbəsində, görülməli, maşın və texnikalar mövsümə uyğun hazırlanmalıdır. Bütün postlar mövsümlə əlaqədar yoxlanılıb, işçi kollektivi əməyin təhlükəsizliyi üzrə təlimatlandırılıb və heyət yeni qış geyim formaları ilə təmin olunmalıdır.

**Xəbərlər şöbəsi**



## İqtisadiyyat

# Mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında süni mayalandırmanın əhəmiyyəti

*Tanrının Vətənimizə bəxş etdiyi nemətlər bitib-tükənməzdir. Münbit torpaq, sağlam iqlim, zəngin bitki örtüyü imkan verir ki, müxtəlif növ heyvanların cins tərkibi yaxşılaşdırılsın. Bütün bunlar ölkəmizdə heyvandarlığı inkişaf etdirmək üçün geniş imkanlar açır. Bu gün kəndli-fermer və digər heyvandarlıqla məşğul olan təsərrüfatların inkişaf etdirilməsi qarşıya qoyulan əsas məqsədlərdəndir. Bu baxımdan dövlət vaxtaşırı bu sahəyə ciddi maliyyə dəstəyi göstərir. Prezident cənab İlham Əliyev 2015-ci ildə “Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında”, “Heyvandarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi haqqında” və “Heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında” sərəncamlar imzalamışdır. Sərəncamlara əsasən əhalinin heyvandarlıq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 (yüz) manat həcmində subsidiya müəyyən edilir.*




Azərbaycanda ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlər çərçivəsində heyvan mənşəli məhsulların istehsalının daha da artırılması və cins iribuynuzlu damazlıq heyvanlara olan tələbatın ödənilməsi də əsas prioritetlərdəndir. Bu məqsədlə ölkəyə iribuynuzlu damazlıq heyvanların idxalının və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına lizinq yolu ilə 50 faiz güzəştlə satışının həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə 15,0 (on beş) milyon manat ayrılması nəzərdə tutulmuşdu.

Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da heyvandarlığın inkişafı ilə bağlı mühüm addımlar atılır, dövlət başçısının müvafiq sərəncamlarının icrası uğurla yerinə yetirilir. Sovetlərin caynağının el-obamızdan çəkildiyi, müstəqilliyimizi yeni qazandığımız illərdə kəndlərdə beş evdən birinin qapısında mal-qara var idisə, bu gün hər kəsin heç olmasa, bir baş iribuynuzlu və ya bir neçə xırdabuynuzlu heyvanı mövcuddur. Onu da qeyd etmək yerinə düşər ki, özünüməşğulluq proqramı çərçivəsində də ailələrin mal-qara ilə təmin edilməsi diqqətdə saxlanılıb.

Muxtar respublikada yetişdirilən qaramalın cins tərkibini yaxşılaşdırmaq və məhsuldarlığını yüksəltmək məqsədilə 2002-ci ildən başlayaraq maldarlıqda süni mayalandırma üsulunun tətbiqi ilə əlaqədar ilk dəfə Babək rayonunun Nehrəm kəndində süni mayalanma məntəqəsi yaradılıb. Sonrakı illərdə bütün rayonlarda və Naxçıvan şəhərində yeni süni mayalanma məntəqələri yaradılmaqla belə məntəqələrin sayı 23-ə çatdırılıb. Süni mayalanma məntəqələrinin operatorları praktik təcrübə keçməklə bu işi öyrəndikdən sonra fəaliyyətə başlamışlar. Mal-qaranın süni mayalanması işini təşkil etmək üçün rayon baytarlıq laboratoriyaları nəzdində kənd və qəsəbə süni mayalanma məntəqələri yaradılıb. Beləliklə, muxtar respublikada bu sahədə bir sistem formalaşıb. Dövlət qayğısının daha bir ifadəsi olaraq muxtar respublikanın Babək rayonu ərazisində Süni Mayalanma Mərkəzi tikilib istifadəyə verilib.





Bir neçə ay bundan əvvəl mərkəzə baxış zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: *“Muxtar respublikada heyvandarlığın inkişafında əsas məsələ onun cins tərkibinin yaxşılaşdırılmasıdır. Ona görə də Süni Mayalanma Mərkəzinin yaradılmasına ehtiyac vardı. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral və 2019-cu il 22 noyabr tarixli sərəncamlarına əsasən muxtar respublikada Süni Mayalanma Mərkəzinin yaradılması ilə bağlı vəsait ayrılmış və mərkəzin tikintisinə başlanılmışdır. Muxtar respublikada nə keçmiş Sovetlər Birliyi dövründə, nə də müstəqillik illərində Süni Mayalanma Mərkəzi olmamışdır. Lakin 15 ilə yaxın bir dövrdə muxtar respublikada mal-qaranın cins tərkibinin yaxşılaşdırılması diqqətdə saxlanılmış, süni mayalanma tədbirləri həyata keçirilmişdir. Törədici toxumların və digər avadanlıqların idxal olunmasına baxmayaraq, ötən dövrdə muxtar respublikamızda 83 min başa yaxın mal və camışlarda süni mayalanma aparılmış, 60 minə yaxın cins buzov alınmışdır. Artıq muxtar respublikada mal-qaranın cins tərkibində ciddi dəyişiklik vardır. Zərurət nəzərə alınaraq muxtar respublikada müasir Süni Mayalanma Mərkəzinin yaradılmasına başlanılmış və işlər əsasən başa çatmışdır”.*

10 may 2021-ci il tarixdə Süni Mayalanma Mərkəzinin açılış mərasimində iştirak edən Prezident cənab İlham Əliyev deyib: *“Bu gün Süni Mayalanma Mərkəzinin açılışında olduq. Bildirməliyəm ki, ölkəmizdə cəmi iki mərkəz var – biri Göygöldə, biri də Naxçıvanda. Əminəm ki, bu mərkəzin fəaliyyəti nəticəsində yaxın 4-5 ildən sonra Naxçıvan südçülük sahəsində artıq bütün işlər tamamlanmış olacaq və Naxçıvan özünü necə ki digər əsas ərzaq məhsulları ilə təmin edir, südlə də təmin edəcəkdir. Yəni bütün bunlar inkişafın təzahürüdür”.*

Süni Mayalanma Mərkəzində 2 hektar ərazidə inzibati bina, yataqxana, karantin binaları, baytarlıq klinikası, toxum alma sahəsi, tövlə, yem anbarları, texnika parkı və digər xidməti binalar inşa olunub. İnzibati binada yeməkxana və iş otaqları, elektron lövhə ilə təmin edilmiş Təlim-Tədris Mərkəzi və arxiv, karantin binasında baytar otağı, anbar və törədicilərin saxlanma yeri, baytarlıq klinikasında heyvan saxlama yeri və müayinə otağı vardır. Toxum alma sahəsində laboratoriya yaradılıb.

Mərkəzdə südlük və ətlik-südlük istiqamətində “Holştein-friz”, “Simmental”, “Qafqaz camışı” cins iribuynuzlu törədicilər saxlanılır. Muxtar respublikada 2015-2021-ci illərdə 103 min 398 baş iribuynuzlu heyvanlarda süni mayalandırma aparılıb, 68 min 67 baş cins buzov alınıb. Ana heyvanların süni mayalandırılmasında südlük istiqamətdə “Holştein-friz”, südlük-ətlik istiqamətdə “Şvis”, ətlik istiqamətdə “Aberdin Anqus”, “Limuzin”, “Şarolle”, ətlik-südlük istiqamətdə isə “Simmental” cinsli törədici toxumlardan istifadə olunub. Həmin illərdə alınmış 38 min 573 baş buzova görə sahibkarlara 3 milyon 300 min manat subsidiya ödənilib.

Süni mayalanma tədbirlərinin aparılması respublikada heyvandarlığın daha da inkişaf etdirilməsinə, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına, heyvandarlıq məhsullarının intensiv artımına və təhlükəli xəstəliklərin yayılmasının qarşısının alınmasına ciddi təsir göstərir. Hazırda muxtar respublikanın bütün kəndlərində süni mayalanma aparılır. Babək rayonundakı qaramal damazlıq təsərrüfatında 4-cü nəsildən olan düyələr yetişdirilərək sahibkarlara satışı təşkil edilir. Bu sahədə daha yaxşı nəticələrin əldə edilməsində damazlıq düyələrin sahibkarlara satılmasının böyük əhəmiyyəti vardır. Çünki bu heyvanlar ət və süd məhsulları istehsalının artmasına və heyvandarlıq mədəniyyətinin yüksəlməsinə müsbət təsir göstərir. Heyvandarlıqda süni mayalanma tədbirlərinin genişləndirilməsi nəticəsində alınan mələz balaların hesabına mal-qaranın cins tərkibi ildən-ilə yaxşılaşır. Eyni zamanda naxırda cins heyvanların baş sayı da çoxalır.

Belə tədbirlər nəticəsində ət və süd istehsalı da artmağa başlayıb. Süni mayalanma müxtəlif yoluxucu xəstəliklərin qarşısının alınmasına və qısırlığın azalmasına kömək edir. Süni mayalanmanın geniş tətbiq olunması üçün muxtar respublikada kənd təsərrüfatı heyvanlarının süni mayalanma məntəqələrinə hər il yeni avadanlıqlar, maye azot, toxum və yedəkli motesikletlər ayrılır. Bütün bunlar isə muxtar respublikada yaxın gələcəkdə daha çox sayda süni mayalanmanın aparılmasına imkan verəcək. Onu da qeyd etmək yerinə düşər ki, muxtar respublikada mayalanma məntəqələrinin tələbatını tam ödəyən maye azot istehsalı müəssisəsi də fəaliyyət göstərir. Yeni yaradılan mərkəz bu sahədə işləri daha da təkmilləşdirəcək, digər məntəqələrdə həyata keçirilən tədbirlər vahid mərkəzdən idarə olunacaqdır. Bununla da heyvanların cins tərkibinin yaxşılaşdırılması prosesi sürətlənəcək ki, bu da süd və ət istehsalının bir neçə dəfə artmasına imkan verəcəkdir.



*Süni Mayalanma Mərkəzinin yaradılması artıq mal-qaranın cins tərkibinin daha da yaxşılaşdırılmasına, heyvandarlıq məhsulları istehsalının genişləndirilməsinə müsbət təsirini göstərməkdədir.*

**İntiqam HÜSEYNBƏYLİ**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*Ailə təsərrüfatlarımız*

# Yeni istehsal sahəsinin fəaliyyəti genişlənib

Bu gün muxtar respublikada yaradılan çoxsaylı ailə təsərrüfatları əhalinin rifah halının yüksəlməsinə öz töhfəsini verən mütərəqqi kiçik təsərrüfat birlikləri kimi diqqəti cəlb edir. Bu təsərrüfatların formalaşmasında əməksevərlik, ailə birliyi əsas şərtlərdəndir. Kənd yerlərində məskunlaşan ailələrin istehsal etdiyi məhsullarla həmin ailələrin həm öz istehlak tələbatlarının müəyyən bir qismi ödənilir, həm də artırılan təsərrüfat məhsullarını satmaq və ya dəyişdirmək yolu ilə gəlir əldə edilir. Bu da muxtar respublikada kənd təsərrüfatının inkişafına, nəticə etibarilə, iqtisadiyyatımızın gücləndirilməsinə öz təsirini göstərir. Demək olar ki, hər il muxtar respublikamızda yeni ailə təsərrüfatlarının yaradılmasının şahidi oluruq. Onlardan biri də Naxçıvan şəhər sakini Anar Əzizova məxsus ailə təsərrüfatıdır.

Artıq 7 aydır ki, fəaliyyətə başlayan bu ailə təsərrüfatı partladılmış qarğıdalı – popkorn istehsalı ilə məşğuldur. Anar Əzizova söhbət zamanı bu addımı atarkən onda bu ideyanın haradan yarandığı sualına cavab olaraq bildirdi ki, Naxçıvanda popkorn çox sevilən çərəz növüdür. Uşaq vaxtlarımızdan evimizdə bu çərəzin hazırlanmasını görmüşdük.



Müsahibim onu da əlavə edir ki, qarğıdalı dünyanın ən qədim bitkilərindən biridir. Bu bitkinin yaşıl kütləsindən, toxumundan, yağından geniş istifadə olunur. Toxumlarından müxtəlif yeyinti məhsulları hazırlanır. Bunların içərisində isə ən geniş yayılanı popkorndur. İnsanların asudə vaxtlarında istifadə etdikləri çərəzlərdən biri olan popkornun digər çərəzlərdən fərqi ondadır ki, onda əlavə tullantılar olmur. Bu isə popkornun çox istifadə olunduğu açıq məkanların çirklənməsinə imkan vermir.

Onu da xatırladım ki, istifadə olunan xammalı Şərur rayonundan alıram. Məhsulun tərkibində heç bir qatqı maddəsi olmadığından 180 gün saxlama müddəti var. Bunun əsas səbəblərindən biri də istifadə etdiyimiz təbii və mineral olan Naxçıvan duzudur. Hazırlanan məhsul duzlu və duzsuz olmaqla, iki çeşiddədir. Hazır olan məhsulu Türkiyədən sifariş etdiyim yeyinti məhsulları üçün yağlı paketlərə qablaşdırıram.

Vurğulamaq istərdim ki, fəaliyyətə başlamaq istəyərkən bizə müvafiq dövlət qurumları tərəfindən köməklik göstərildi. Xüsusilə də məhsulun qablaşdırılması, onlar üçün müvafiq emblemlərin hazırlanması və digər istiqamətlər üçün hərtərəfli dəstək gördük. Bu gün artıq 40, 65, 115 qram yüksəkkeyfiyyətli kağız qablaşdırmalarda popkornlar ticarət şəbəkələrinə paylanılır.

Həkimlərin dediyinə görə, partladılmış qarğıdalı insan orqanizmi üçün xeyirlidir. Uşaqların boyunun uzanmasına və böyüklərin gözəl bədən quruluşuna sahib olmasına kömək edir. Faydaları sırasında o da var ki, tərkib etibarilə yüksək miqdarda olan polifenol maddəsi partladılmış qarğıdalını bir sıra meyvə və tərəvəzdən də vacib edir. Həmçinin qarğıdalı dəninin qidalanma dəyəri çox yüksəkdir. Onun tərkibi 75 faiz karbohidratlar, karotin və bir sıra vitaminlərlə zəngindir.

Anar Əzizovun ailə təsərrüfatı popkornla yanaşı, qovurğa və sumax da hazırlayır. Təsərrüfat başçısı deyir ki, ta qədim zamanlardan qovurğa necə hazırlanırdısa bu gün də ocaqda sacın üstündə qovururuq. Tərkibində küncütü, ərik dənəsi, badam, fındıq və sair ləpələr var. Ərsəyə gətirdiyim məhsulu 90 gün müddətində saxlamaq olur. Sumağı Ordubaddan alıb gətirərək xüsusi bir avadanlıqla hazırlayırıq. Bu məhsulun da saxlama müddəti 180 gündür.

Müsahibim onu da bildirdi ki, fəaliyyətlərinə geniş imkanlar yaradılan ailə təsərrüfatları insanların məşğulluğunun təmin olunmasında böyük əhəmiyyətə malikdir. Məlumdur ki, ailə üzvlərinin hər biri zamanı yetişdikcə işləmək məcburiyyətindədir. Yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq problemlərinin həlli isə daim dövlətimiz tərəfindən diqqət mərkəzindədir. Ailə təsərrüfatı ilə məşğul olanların ailə üzvləri isə belə tədbirlərə ehtiyac duymadan öz məşğuluqlarını təmin edirlər.

**Aytac CƏFƏRLİ**

# Şahbuz rayonunda “Şərq qapısı” qəzetinin yubiley tədbiri olub




*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər planına əsasən sentyabr ayının 1-də Şahbuz Rayon Mədəniyyət Sarayında mətbu orqanın yubiley tədbiri keçirilib. Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Tural Quliyev açaraq “Şərq qapısı” qəzetinin mətbuat tariximizdəki əhəmiyyətindən bəhs edib.*

“Şərq qapısı” qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova çıxışında vurğulayıb ki, bugünkü müstəqil mətbuatımızın inkişafı 3 sentyabr 1991-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən, 1990-1993-cü illərdə Naxçıvandakı siyasi fəaliyyəti ilə Azərbaycanın gələcək müstəqilliyinin əsasını qoyan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Baş redaktor 100 yaşlı mətbu orqanın keçdiyi tarixi inkişaf yoluna nəzər salıb, milli mətbuatımıza göstərilən diqqət və qayğıdan danışıb. Bildirilib ki, 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan “Cavanlar həyatı” ilə əsası qoyulan “Şərq qapısı” qəzeti müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynamışdır.

Qeyd olunub ki, ötən əsrin 70-80-ci illərində “Şərq qapısı” qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Qəzetin 50 illik yubileyində “Şərəf nişanı” ordeni ilə təltif olunması həmin dövrdə Azərbaycana rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin mətbuata böyük qayğısının təzahürü idi.Tarixən Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən “Şərq qapısı” qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüş, 1990-cı il 20 yanvar tarixdən etibarən səkkiz nömrəsi müstəqil çıxan qəzet milli həmrəylik, demokratiya və milli müstəqillik uğrunda mübarizədə ideoloji bayraqdar funksiyasını yerinə yetirmişdir. Ümummilli lider Heydər Əliyevin “Şərq qapısı” qəzetinin 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan müsahibəsi, ulu öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunmuş ilk müsahibə kimi qəzetin fəaliyyət tarixində şanlı səhifəni təşkil edir. Qəzet muxtar respublikamızda fəaliyyət göstərən görkəmli dövlət xadiminin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur. 1990-1993-cü illərdə ulu öndərimiz qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin etmişdir.

Diqqətə çatdırılıb ki, qəzet keçmişdə olduğu kimi, bu gün də muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verir. “Şərq qapısı” qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuş, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilmişdir. “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamın imzalanması və bu Sərəncamla Tədbirlər Planının təsdiq olunması, bütövlükdə,



muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir. Baş redaktor Ali Məclis Sədrinin aşağıdakı müdrik fikirlərinin hər bir jurnalist üçün əsas fəaliyyət prinsipinə çevrildiyini vurğulayıb: ***“Mətbuat işçiləri dövrün salnaməsini yaradan və onu gələcəyə daşıyanlardır. Muxtar respublikada jurnalistlərin fəaliyyəti üçün yaradılan şərait qarşıya qoyulan vəzifələri yerinə yetirməyə imkan verir. Bu gün dünyada mövcud olan muxtar qurumların mətbuat sahəsinə nəzər saldıqda, müqayisə etdikdə bir daha aydın olur ki, muxtariyyət statusu bizdən daha çox olanlarda belə, Naxçıvandakı qədər mətbuata qayğı göstərilmir, şərait yaradılmır. Bu da bizi qürurlandırır ki, muxtar respublikamızda vətənpərvər jurnalistlər ordusu formalaşıb. Televiziya, qəzet və digər media qurumları yaratmaq işin bir tərəfidir. Amma əsas məsələ onların səmərəli fəaliyyətinə nail olmaqdır”.*** Baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında bildirib ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. Muxtar respublikada mətbuatın inkişafı ilə paralel olaraq yüksək nəşriyyat-poliqrafiya mədəniyyəti də formalaşmışdır. 2018-ci ildə dövlət teleradiosuna, “Şərq qapısı”, şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınmış, sonrakı dövrdə də teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilmişdir.

Rövşən Hüseynov bu gün “Şərq qapısı” qəzeti redaksiyasında müasir iş şəraiti yaradılmasından, 2012-ci ildən etibarən *www.serq-qapisi.az* saytı vasitəsilə qəzetin Naxçıvanla bağlı dünyanın informasiya tələbatını ödəməyə başlamasından danışıb.

Tədbirdə “Şərq qapısı” qəzetinin əməkdaşı Əli Cabbarov, Şahbuz Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan “Oğuz səsi” qəzetinin redaktoru Pərviz Hacılı, rayon ziyalılarından İmran Məmişov, Məhərrəm İsmayılov çıxış edərək “Şərq qapısı” qəzetinin fəaliyyətindən, milli mətbuatımızın inkişafındakı rolundan ətraflı söhbət açıblar.

Tədbir ərzində qəzetin tarixi inkişaf yolu və iş prinsipini əks etdirən videoslayd nümayiş olunub. Sonda “Oğuz səsi” qəzetinin redaktoru Pərviz Hacılıya “Şərq qapısı” qəzetinin fəxri fərmanı və hədiyyələr, qəzetlə fəal əməkdaşlıq edən digər qələm sahiblərinə hədiyyələr təqdim olunub.

**Telli MƏMMƏDOVA**

# Naxçıvanda ənənəvi məktəbli yarmarkalarına start verilib

Yeni tədris ili ərəfəsində müəllim və şagirdlərin məktəbli ləvazimatlarına olan ehtiyaclarını daha asan, rahat və çevik şəkildə təmin etmək məqsədilə dünən Naxçıvan şəhərindəki Mərkəzi bazarda Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirliklərinin təşkilatçılığı ilə ənənəvi məktəbli yarmarkası təşkil olunub.





Yarmarkanın açılış mərasimində Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, ənənəvi olaraq təşkil edilən məktəbli yarmarkaları muxtar respublikada digər sahələr kimi təhsilin də inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev çıxışında diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan şəhərində və rayonlarda ənənəvi məktəbli yarmarkaları fəaliyyətə başlayır. Belə yarmarkalar yeni tədris ili ərəfəsində şagirdlərin məktəbli geyimlərinə və dərs ləvazimatlarına olan tələbatlarının daha asan şəkildə təmin edilməsində mühüm rol oynayır. Hazırda Naxçıvanda müəllim və şagirdlərin vahid geyim formalarına olan tələbatını ödəmək imkanına malik məktəbli geyimləri, köynək, ayaqqabı istehsalı olmaqla, 3 yüngül sənaye müəssisəsi fəaliyyət göstərir. Cari ildə də 3-ü istehsal müəssisəsi olmaqla, 23 sahibkarlıq subyektinin iştirak etdiyi yarmarkada 51 adda dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası, ayaqqabıları və başqa ləvazimatlar alıcılara münasib qiymətlərlə təklif olunur.

Təhsil naziri Rəhman Məmmədov çıxış edərək vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə təhsilin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, şagirdlərin məktəbli geyimləri və dərs ləvazimatları ilə təminatı diqqət mərkəzində saxlanılır, hər il ənənəvi məktəbli yarmarkaları təşkil olunur. Sevindirici haldır ki, muxtar respublikada məktəbli geyimlərinə olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Bu gün təşkil edilən məktəbli yarmarkalarında da muxtar respublikada istehsal olunmuş məktəbli geyimləri əhaliyə təklif edilir. Artıq “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən dəftərxana ləvazimatları, müəllimlər üçün dərs planları, lüğət dəftərləri, hüsnxətlər, dəftərlər, məktəbli kitabçaları nəşr olunur. Həmin nəşrlər də yarmarkada satışa çıxarılıb.

Sonra yarmarkaya gələnlər satışa çıxarılan məhsullarla tanış olublar. Satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanıb.

Valideynlər belə yarmarkaların təşkil olunmasına görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, məktəbli yarmarkası muxtar respublikanın bütün rayonlarında təşkil olunur. Yarmarka sentyabr ayının 15-dək, saat $9^{00}$-dan $14^{00}$-a kimi əhaliyə xidmət göstərəcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Növbəti aktivlər təqdim edilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən avqust ayında həyata keçirilmiş özünüməşğulluq tədbirləri çərçivəsində muxtar respublika üzrə 29 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və bu ailələrdən 22 nəfərin hər birinə 2 baş iribuynuzlu, 2 nəfərin hər birinə 20 baş xırdabuynuzlu heyvan, 1 nəfərə otbiçən aqreqat, 2 nəfərə miniyerşumlayan aqreqat, 1 nəfərə döşəmə hamarlayan dəzgah, 1 nəfərə isə otdoğrayan aqreqat verilib. Bu mərhələdə özünüməşğulluğu təmin edilmiş şəxslərin 12 nəfərini sağlamlıq imkanları məhdud vətəndaşlar, 2 nəfərini şəhid ailəsi üzvləri, 2 nəfərini cəzaçəkmə müəssisəsindən azad olunanlar, 2 nəfərini isə ailə üzvləri sırasında qazi olan şəxslər təşkil edib. Eyni zamanda təsərrüfatlarını nümunəvi şəkildə inkişaf etdirdiyinə görə daha 1 nəfər həvəsləndirmə tədbirlərinə cəlb edilib və onun fəaliyyətinin stimullaşdırılması məqsədilə həmin şəxsə otdoğrayan aqreqat verilib.

Növbəti mərhələ üzrə verilmiş aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Nazir muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən nazirliyin Dövlət Məşğulluq Agentliyinin sektor müdiri Nadim Nəcəfov və Ordubad Rayon Məşğulluq Mərkəzinin direktoru Telman Həsənov ötən dövr ərzində proqramın icrası çərçivəsində görülən işlərdən danışıblar. Tədbirin davamında yeni aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Məşğələlər keçirilir

Əlahiddə Ümumqoşun Ordunun rabitə bölmələrində məşğələlər keçirilir. Yaranmış mürəkkəb şəraitdə rabitənin təmini ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə keçirilən məşğələlərdə səhra rabitə qovşağının ərazidə açılması praktik olaraq məşq etdirilir.

İdarəetmənin təşkili üçün ərazidə açılmış dayaq və mobil radioqov-



şaqlardan gənc rabitəçilərin qərargahlararası məlumatlar mübadiləsini yüksək keyfiyyətlə yerinə yetirmə bacarıqları yoxlanılır.

**Nəriman NƏCƏFOV**

# Müsahibə mərhələsi başlayıb



Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin müsahibə mərhələsi başlayıb. Müsahibəyə hazırlıq məqsədilə avqustun 27-də Dövlət İmtahan Mərkəzində 13 müstəqil ekspert və 12 dövlət orqanını təmsil edən 15 nümayəndənin iştirakı ilə seminar keçirilib.

Müsahibədə ilk olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda işləmək istəyən namizədlər iştirak ediblər.

Müsahibə qrupunun tərkibinə müstəqil ekspertlər, mərkəzin və dövlət orqanlarının nümayəndələri daxildir. Müsahibə zamanı namizədlərə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, peşə hazırlığına və dünyagörüşünə uyğun suallar verilir.

Qeyd edək ki, 18 dövlət orqanı tərəfindən müsabiqəyə çıxarılan 59 vakant vəzifənin tutulması üçün 729 namizəd sənəd təqdim edib. Test mərhələsində iştirak edən 662 namizəddən 285-i müvafiq keçid balını toplayıb. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vakant vəzifələrin tutulması üçün 13 namizəd müraciət edib. Esse imtahanında iştirak edən 12 namizəddən 8-i keçid balını toplayıb.

Müsahibə mərhələsində iştirak etmək üçün 259 namizəd qeydiyyatdan keçib. Həmçinin əvvəlki müsabiqələrdə qanunvericiliklə müəyyən edilmiş keçid balını toplamış və inzibati vəzifə üzrə sertifikat əldə etmiş 6 namizədin müraciəti nəzərə alınaraq onların müsahibə mərhələsində iştirakları təmin olunub. Ayrı-ayrı dövlət orqanları üzrə ən sıx müsabiqə vəziyyəti Dövlət Sosial Müdafiə Fondu, Maliyyə, Təhsil, Gənclər və İdman nazirlikləri üzrə qeydə alınıb.

Dövlət orqanları üzrə müsahibələr mərkəzin rəsmi internet portalında yerləşdirilmiş qrafikə uyğun olaraq 15 sentyabr 2021-ci il tarixə kimi davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi – 50

# Tanınmış teatr rəssamı Əbülfəz Axundov

***Azərbaycan realist rəssamlığında fərqli texnikası, müasir üslubu ilə seçilən, yaddaqalan sənətkarlardan biri də Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, mərhum Əbülfəz Axundovdur. O, qrafika və rəngkarlığın müxtəlif janrlarına tez-tez müraciət edir, sulu boyalarla çəkdiyi mənzərələr, səhnəqrafiya sahəsində yaratdığı kompozisiya və portretlərilə hamının diqqətini cəlb edirdi. Onun özünəməxsus yaradıcılıq texnikası tərtibat verdiyi tamaşaların ideya-məzmununun açılmasında xüsusi rol oynayırdı. Ə.Axundov Naxçıvan teatrında bədii tərtibat sahəsində səmərəli fəaliyyəti ilə diqqət çəkirdi. Rəssamı olduğu tamaşalarda musiqinin dramatik, lirik və fəlsəfi xarakterini tərtibatda poetikliklə obrazlaşdırmağa səy göstərirdi. İstedadlı rəssamın yaratdığı əsərlər rənglərin şuxluğu və aydınlığı, kompozisiyanın sadəliyi ilə fərqlənirdi. Tamaşalara veriyi tərtibat işləri isə dramaturq və rejissor fikri ilə poetik ahəngdarlıq yaratması baxımından səciyyəvi idi. Onun müasir və klassik üslubda hazırladığı kompozisiyalar monumentallığı və obrazlı səhnə həlli ilə maraq doğururdu. Tərtibatlarındakı və geyimlərdəki rənglər şux və koloritli, ahəngdar və cazibəli idi.***



Bununla da onun tərtibatları tamaşanın bədii obraz-atributuna çevrilirdi. Həmin tərtibatlar monumental olduğu qədər, ifaçılar üçün hərəkət və ifa imkanları yaradan genişliyə malik idi. 1987-ci ildə Naxçıvan teatrında rəssam kimi fəaliyyətə başlayan Ə.Axundov müxtəlif tamaşalara verdiyi bir-birindən fərqli, maraqlı, rəngarəng kompozisiya quruluşları ilə diqqətini cəlb edirdi. Müstəqillik illərində isə sənətkar daha məhsuldar yaradıcılıq fəaliyyəti göstərir, çoxsaylı teatr tamaşalarına mövzu və ideyasına görə yaddaqalan bədii quruluşlar verirdi.

Naxçıvan teatrında 38 illik fasilədən sonra 1997-ci ildə yenidən səhnəyə qoyulan “Nadir şah” (Nəriman Nərimanov) tamaşası Ə.Axundovun bədii quruluşunda rəng koloritinin zənginliyi, geyim formalarının tarixi və xarakterə uyğunluq baxımından düzgün seçimi ilə diqqəti cəlb edirdi. Tarixi faciə yeni səhnə quruluşunda hakimiyyət ideyalarının qabardılması, cəsurluq, vətənpərvərlik ideyaları rəssamın bədii tərtibatı ilə birgə səsləşməklə teatrın uğur qazanan tamaşalarından olub.

Ə.Axundovun səhnə tərtibatında, əsasən, 60-90-cı illərdə səhnəqrafiyada təcəssüm tapan, aparıcı üsluba çevrilən lirik-psixoloji üslub xüsusiyyətlərinə də rast gəlinir. 1988-ci ildə İ.İsgəndərovun quruluşunda səhnəyə qoyulan “Dəyirman” (Mövlud Süleymanlı) əsərində simvolik Dəyirman obrazı ilə sovet quruluşunun çürüməyə başladığını real lövhələrlə əks etdirirdi. El imanında ruzi, bərəkət mənbəyi olan dəyirman artıq dən üyütmür, adamları ehtiyacın, qara günün pəncəsindən xilas etmir, indi o sərxoş başları ovundurur. Simvolik məna daşıyan bu məzmun rəssamın tamaşaya verdiyi tərtibatda lirik ahəng, özünəməxsus dəstxəti ilə təcəssüm etdirilirdi.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 75 illiyi münasibətilə 1999-cu il may ayının 10-da Xalq şairi Nəriman Həsənzadənin “Atabəylər” əsəri Azərbaycan Milli Akademik Dram Teatrının rejissoru Mərahim Fərzəlibəyovun quruluşunda (rejissor Kamran Quliyev) tamaşaya qoyuldu. Bu monumental tarixi pyesdə xalqımızın qəhrəmanlıq salnaməsi, yadellilərə qarşı mübarizəsi yüksək dərəcədə izləyicilərə çatdırıldı. Quruluşçu rəssam Ə.Axundov özünəməxsus üslub xüsusiyyətləri, texnikası və rəng tembri ilə tamaşanın təsirini daha da gücləndirmişdi. Tamaşada, ilk növbədə, rəssamın xüsusi cazibədarlıqla təsvir etdiyi Möminə xatın türbəsi və giriş qapıları tamaşanın mövzusu ilə həmahəng səslənmiş və əsərin ideyasının tamaşaçılara çatdırılmasında xüsusi rol oynamışdı. Yuxarıdan asılmış ox ucluqları, nizələr əsərin ideyasında simvolik məna daşımış, tamaşanın geyim eskizlərində isə dövrə, obraza, xarakterə uyğunluq istər onların formalarında, istərsə də rəng koloritində öz əksini tapmışdı. Geyimlərdə, dekorlarda daha çox istifadə etdiyi qırmızı rəng koloriti tamaşanın əsas ideyası olan mübarizliyin, qəhrəmanlığın, əyilməzliyin simvolu kimi xarakterizə olunmuşdu. Tamaşanın güclü bədii tərtibatı tanınmış rejissor Mərahim Fərzəlibəyovun diqqətindən yayınmamışdı. O, teatrın quruluşçu rəssamı haqqında demişdir: “Tamaşanın quruluşçu rəssamı Əbülfəz Axundovdur. Bu başdan deyim ki, bu rəssam olduqca istedadlı, səhnəni, səhnəqrafiyanı gözəl bilən bir yaradıcıdır. Əbülfəzdə olan yaradıcı fantaziya mənim çox xoşuma gəldi. O, olduqca zövqlü və geniş yaradıcı təxəyyülə malik teatr rəssamıdır... Əgər mən Naxçıvan teatrında yenidən tamaşa qoysam, tərəddüd etmədən gözəl teatr rəssamı Əbülfəz Axundovla birgə işlərdim”. Tamaşanın tərtibatı əsərin ideyasının, ictimai-siyasi mahiyyətinin daha da qabardılmasında xüsusi rol oynayıb. Tamaşanın ideya fəlsəfəsi haqqında akademik İsa Həbibbəyli yazırdı: “Atabəylər” tamaşası milli-tarixi özünüdərk prosesinin dərinləşməsinə kömək edir, mənlik və müstəqillik düşüncəsini daha da qüvvətləndirir. Bu fikirləri, eyni zamanda tamaşanın bədii tərtibatını hazırlayan quruluşçu rəssam Ə.Axundov haqqında da söyləmək olar”.

Naxçıvan teatrında 2003-cü ildə Hüseyn Cavidin “İblis” mənzum faciəsi K.Quliyevin quruluşunda səhnəyə qoyuldu. Əsərin bədii ruhu, fəlsəfi ideyası Ə.Axundovun hazırladığı maraqlı bədii quruluşda daha aydın şəkildə, forma, rəng və kompozisiya baxımından çox təsirli alınmışdı. İctimai qəzəb və etiraz hissləri müharibə ideyaları ilə yaşayanlara qarşı yönələn “İblis” faciəsində insanları əzab və iztirablara salan, min bir dona girərək riyakarlığı və böhtanları ilə həzz alan İblisin təbiəti ilə müasir dünyanı fəlakətə sürükləyənlərin törətdikləri mənfur oyunlar, tamaşanın bədii tərtibatında öz bədii və fəlsəfi duyumları ilə əks olunurdu. Tamaşada İblisin xislətini onun geyiminin formasında və rənglərində aydın görmək mümkün idi. Belə ki, əzəmətli və qorxunc, şər və qisas mücəssiməsi olan İblisin (Həsən Ağasoy) qrimi sadə olsa da, geyim üçün seçilmiş forma və qırmızı astarlı qara plaşı, qırmızı işıq effektləri onu daha da heyrətamiz və qorxunc göstərirdi.

Milli dramaturgiyamızın əvəzsiz incilərindən olan Cəlil Məmmədquluzadənin “Dəli yığıncağı” əsəri verilən mənəvi-əxlaqi, ictimai-siyasi problemlərin fəlsəfi dərinliyi və psixoloji mahiyyəti ilə milli dramaturgiyamızın nadir nümunələrindəndir. Əsərin əsas ideyası 2005-ci ildə Kamran Quliyevin quruluş verdiyi tamaşanın bədii tərtibatında daha qabarıq hiss olunurdu. Səhnə əsərinin ideya bədii ruhu öncə quruluşçu rəssam Ə.Axundovun hazırladığı tərtibatda istifadə etdiyi palitrada soyuq rəng koloritinin üstünlüyü, bu rəng fonunda boz, ağ, mavi və qara rənglərdən ibarət formalar təcəssüm tapmışdı. Pərdədə bu rənglərlə verilmiş yarımdairə formasındakı zolaqlar tamaşanın məzmununun, ruhunun duyulması ilə yanaşı, səma sonsuzluğu effekti kimi də dərin təsir bağışlayırdı. Bədii tərtibatında rəssam əsərin fəlsəfi-psixoloji mürəkkəbliyini xüsusi diqqətdə saxlayaraq, hadisələrin mahiyyətinə və obrazların qrimlərlə, geyimlərlə davranmasına diqqət yetirmişdi. Rəssam dekorlarda dekonstruktivizm xüsusiyyətlərini ön plana çəkmiş, səhnənin maraqlı görünüşünü də əsərin ideya-bədii xüsusiyyətlərinin harmoniyasına uyğun hazırlamışdı. Tərtibatda dekorativ meyillər daha çox evlərin arxasında göstərilən qara rəngli ağacların təsvirində verilmişdi. Rəssamın bədii quruluşunda janr-üslub qarışıqlığı deyil, müxtəlif formaların harmonik sintezi, poetik füsunkarlıqla vəhdəti tamaşaya möhtəşəm obrazlılıq gətirir, həm də tamaşanın məzmununun açılmasına, onun daha təsirli olmasına şərait yaradırdı.

Mir Cəlal Paşayevin “Dirilən adam” əsəri K.Quliyevin quruluşunda 2006-cı ildə tamaşaçılara təqdim olunur. Tamaşanın bədii quruluşunu Ə.Axundov fərqli bədii ifadə vasitəsi, zəngin palitrası ilə əsərin ruhunu hiss etdirmişdi, soyuq və isti rəng ahəngi, ağ rəngin simvolik mənadakı ifadəsi və digər məsələləri fərqli tərzdə qabartmışdı. Hadisələrin mürəkkəb toqquşması ilə yaranan konflikt, onların psixoloji mahiyyətindəki faciəvilik diqqət mərkəzində olmuş və rəssam tərtibatda işıq effektlərinin vasitəsilə rəng harmoniyasından istifadə etməyə üstünlük vermişdi.

Ümummilli lider Heydər Əliyevin ideyalarını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin görkəmli dramaturq Hüseyn Cavidin 125 illik yubileyinin keçirilməsi haqqında 2007-ci ilin aprelində imzaladığı Sərəncamın işığında dramaturqun “Səyavuş” mənzum faciəsi həmin ilin 24 oktyabrında K.Quliyevin quruluşunda tamaşaçılara təqdim olundu. Quruluşçu rəssam Ə.Axundovun hazırladığı səhnə tərtibatı sadə, qara fonda daha aydın və diqqətəlayiq idi.

2008-ci il aprel ayının 10-da Naxçıvan teatrının 125 illik yubileyində K.Quliyevin quruluşunda “Araz sahilində doğan günəş” (Həsənalı Eyvazlı) tamaşasının tərtibatını da Ə.Axundov yüksək səviyyədə hazırlamışdı.

2010-cu ildə K.Quliyevin quruluşunda alman ədəbiyyatının banisi Qotholt Efraim Lesinqin “Müdrik Natan” tamaşası (Həmid Arzulunun tərcüməsində) sənətsevərlərə göstərildi. Əsərdəki hadisələr XII əsrdə səlib yürüşləri zamanı baş verir. Tamaşada əsas ideya heç bir dinin bir-birindən üstün olmadığını göstərirdi. Əsərdə üç din üç nəfərin vasitəsilə təsvir olunurdu. Quruluşçu rəssam Ə.Axundovun tamaşaya hazırladığı bədii tərtibat əsərdəki ideya-fəlsəfi fikrin ümumiləşdirilmiş şəkildə verilməsi ilə xarakterizə olunurdu.

Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov türk, altay, qırğız əfsanələrindən bəhrələnərək qələmə aldığı “Gün var əsrə bərabər” əsərində müasir dünyamızın əxlaqi-mənəvi problemləri ilə yaxından səsləşən, tarixi, adət-ənənələri, milli dəyərləri, soykökü unudub manqurtlaşan insanların təhlükəyə çevrildiyi əks olunur. Həmin əsərin motivləri əsasında Tofiq Seyidovun quruluşunda (quruluşçu rəssam Ə.Axundov) hazırlanan “Manqurt” tamaşası 2013-cü ildə uğurla səhnəyə qoyuldu. Rəssam tamaşanın bədii quruluşunu olduqca sadə və yığcam şəkildə, əsasən, rənglərin rəmzi mənalarından istifadəyə üstünlük vermişdir. Rəssam əsərin ideyasının açıqlanması üçün zəruri olan bədii ifadə vasitələrindən və işıq effektlərindən məharətlə istifadə edərək, rəng harmoniyasını yerli-yerində dəyişdirməklə, tamaşanın emosional təsirini daha da artırırdı.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında” 2021-ci il 2 mart tarixli Sərəncamına əsasən bu yubileyin milli mədəniyyətimizə yüksək dəyər verən muxtar respublika rəhbərinin iştirakı ilə dövlət səviyyəsində qeyd olunması, qədim və zəngin tarixə malik Naxçıvan rəssamlıq məktəbinin, eləcə də teatr rəssamlığının yeni müstəvidə araşdırılması və təbliğinə geniş üfüqlər açmışdır. Bu mənada, əminliklə deyə bilərik ki, Əbülfəz Axundovun Naxçıvan teatrında səhnəqrafiya sahəsində qoyduğu izlər hər zaman yaşayacaq. Bundan sonra da teatrda tamaşalara quruluş verən rəssamlar onun səhnəqrafiya sahəsindəki işlərindən bəhrələnəcəklər.*

**Əli QƏHRƏMANOV**
*AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, dosent*

***Bu gün muxtar respublikamızda təhsilin inkişafına dövlətimiz xüsusi diqqət və qayğı göstərir. Bunun ifadəsidir ki, diyarımızda təhsilin bütün pillələri təmin edilib, gənc nəsil üçün müasir tədris şəraiti yaradılıb. Belə şəraitin nəticəsi olaraq isə vətənpərvər, təhsilli və peşə sahibi olan gənclər yetişdirilir.***

Təhsil millətin gələcəyidir

## İnkişafın yolu kitabdan, oxumaqdan, öyrənməkdən keçir



Builki qəbul imtahanlarında I ixtisas qrupu üzrə 656 bal toplayan ***Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin məzunu Ruhan Fərəcov*** onlardan biridir. Ruhan deyir ki, qarşına məqsəd qoymalı və bu məqsədə çatmaq üçün çox çalışmalısan. Mən də belə etdim, çox çalışdım və istəyimə nail oldum. Təhsilimi davam etdirmək üçün əvvəlcədən qəbul olmaq istədiyim Bakı Ali Neft Məktəbini seçdim. Gələcəkdə burada ali təhsil ala bilmək üçün çox çalışmağın gərəkliyini bilirdim. Ona görə də vaxtlı-vaxtında dərslərimi oxudum. Hər gün 6-7 saat dərslərimlə məşğul olurdum. İlk sınağımda nəticəm yüksək olsa da, məni tam qane etməmişdi. Bacarıqlarıma əmin idim, ona görə düşünürdüm ki, hələ kifayət qədər zəhmət çəkməmişəm. Dərslərimə daha çox vaxt ayırmağa başladım. Hətta istirahət vaxtlarımı da dərslərə həsr etdim. Nəticəsi uğurlu oldu – yüksək nəticəni əldə edə bildim. İstedadla yanaşı, əziyyət çəkməyin, səbirli, iradəli və yalnız məqsədə doğru irəliləməyin vacib olduğunu öncədən bilirdim. Müəllimlərimin və valideynlərimin mənə göstərdiyi diqqət və qayğını heç vaxt unutmayacağam.

Onu da qeyd edək ki, Ruhan məktəbdə keçirilən bütün bilik yarışmalarında və tədbirlərdə fəallığı ilə seçilib, dəfələrlə olimpiadalarda iştirak edib və mükafatlara layiq görülüb. Ümumi orta təhsilin fərqlənmə attestatı ilə başa vurub. Eyni zamanda tam orta təhsilini xüsusi nümunəli attestatla bitirməklə nailiyyətlərinə görə “Qızıl” nişana layiq görülüb.

Ruhan deyir ki, qarşıdakı hədəfim yüksəkixtisaslı kadr kimi yetişmək, işimin peşəkarı və hər zaman ehtiyac duyulan mütəxəssis olmaq, oxuduğum təhsil ocağının adını daim yüksəkdə tutmaqdır. İnanıram ki, arzuladığım ali məktəbdə təhsil alarkən də mənə göstərilən etimadı doğruldacağam.



***Naxçıvan Qızlar Liseyinin məzunu Surə Cəfərova*** qəbul imtahanlarında IV ixtisas qrupu üzrə 601 bal toplayıb. O, söhbət zamanı bildirdi ki, təhsil aldığı illərdə respublika fənn olimpiadalarında, “Sabahın tədqiqatçıları” layihəsində fizika və biologiya fənləri üzrə iştirak edərək nailiyyətlər qazanıb: – Hələ uşaqlıqdan arzum gələcəkdə həkim olmaq idi. Bunun üçün aşağı siniflərdən dərslərimə ciddi fikir verərək məktəbi əla qiymətlərlə bitirdim. Dəqiq fənlərə xüsusi marağım var idi. Bunun üçün çox çalışdım. Həqiqətən də əziyyət çəkən bəhrəsini görər. Məktəbi “Qızıl” nişanla bitirərək hədəfimə daha da yaxınlaşdım. Topladığım bal ilə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinə daxil olmaqla, gələcəyin savadlı kadrı kimi yetişməyə səy göstərəcəyəm.

*Biz də inanırıq ki, gənclərimiz seçdikləri sahə üzrə tələbə adını qazanaraq gələcəyin savadlı kadrı kimi ölkəmizin inkişafına öz töhfələrini verəcəklər.*

**Aytac CƏFƏRLİ**

### İtmişdir

Qasımlı Elçin Kamal oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 700